**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyası**

**RAHİB ƏKBƏROV**

# AZƏRBAYCANIN HÜQUQ TARİXİ

**DƏRSLİK**

(əlavə və dəyişikliklərlə ikinci nəşr)

**BAKI-2026**

# Mündəricat

Ön söz ........................................................................................ 4
Azərbaycanın hüquq tarixi: fənnin anlayışı,
predmeti və metodologiyası ................................................................. 9
BİRİNCİ BÖLMƏ. İbtidai-ictimai (totemik-qəbilə)
cəmiyyətində və quldarlıq dövlətlərində ictimai
münasibətlər və hüquq (Ümumi icmal) ................................................ 26
I fəsil. Dövlətəqədərki cəmiyyətin ümumi xarakteristikası,
ictimai hakimiyyət və davranış normalarının formalaşması ................... 31
II fəsil. Azərbaycan ərazisində ilk quldarlıq
dövlətlərinin hüquq tarixi .................................................................. 46
İKİNCİ BÖLMƏ. Feodalizm dövrünün hüquq tarixi:
(III–XVIII əsrlər) (Ümumi icmal) ........................................................ 63
III fəsil. Erkən feodalizm dövründə
Azərbaycanın hüquq tarixi (III–VII əsrlər) ............................................ 68
IV fəsil. VII – IX əsrlərdə Azərbaycanın hüquq tarixi ........................... 88
V fəsil. X–XII əsrlərdə Azərbaycanın hüquq tarixi ............................. 142
VI fəsil. XIII–XV əsrlərdə Azərbaycanın hüquq tarixi ......................... 158
VII fəsil. XVI–XVII əsrlərdə Azərbaycanın hüquq tarixi ...................... 184
VIII fəsil. XVIII əsrdə Azərbaycanın hüquq tarixi ................................ 214
III BÖLMƏ. Müasir dövrün hüquq tarixi
(XIX-XXI əsrin əvvəlləri) (Ümumi icmal) ........................................... 238
IX fəsil. XIX–XX əsrin əvvəllərində
Azərbaycanın hüquq tarixi ................................................................ 245
X fəsil. Azərbaycan Xalq Cümhuriyyətinin
(I Respublika) hüquq tarixi (1918-1920-ci illər) ................................. 316
XI fəsil. Azərbaycan Sovet Sosialist Respublikasının
(II Respublika) hüquq tarixi (1920-1936-cı illər) ................................ 452
XII fəsil. II dünya müharibəsi ərəfəsində və müharibə illərində
Azərbaycanın hüquq tarixi (1937-1946-cı illər) .................................. 519
XIII fəsil. Azərbaycanın hüquq tarixi (1946-1985-ci illər) ................... 546
XIV fəsil. Azərbaycanın hüquq tarixi (1985-1991-ci illər) ................... 583
XV fəsil. Müstəqil Azərbaycanın hüquq tarixi (III Respublika)
(1991-2025-ci illər) ........................................................................... 593
İstifadə olunmuş ədəbiyyatlar ........................................................... 652

## ÖN SÖZ

Ali təhsil müəssisələrinin tələbələri və maraqlanan oxucular üçün təqdim edilən “Azərbaycanın hüquq tarixi” kitabı, müəllifin 30 illik dövrü əhatə edən tədqiqatlarının və mövcud reallıqların doğurduğu gerçəkliklərin nəticəsi kimi ərsəyə gəlmişdir. Azərbaycanın xalqının dövlətçilik və hüquq ənənələrində yaşayan və bəşəri dəyərləri birləşdirən **hüquqi varislik tarixinin** öyrənilməsi, kitabın əsas **məqsədinə** daxildir. **Çünki, məhz yalnız tarix xalqları öz dərslərində tərbiyə edərək keçmişi öyrədir, gələcəyi görmək bacarığında isə ən düzgün yolu göstərir.**

Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün nəzəri-tarixi fənnlər blokunun əhəmiyyəti olduqca böyükdür. Belə ki, ilk növbədə bu predmetlərin tədris olunması hüquq sahə ixtisas fənnlərinin mənimsənilməsini asanlaşdırır, həmçinin mövzular çərçivəsində ayrı-ayrı hüquq sahələri və qanunvericilik külliyyatalarında təqdim edilən ən müxtəlif **anlayışlar, kateqoriyalar, hüquq konstruksiyaları, maddi hüquq, prosessual hüquq, hüquq texnikası, norma tətbiqi** və s. hüquqi təzahürlərin təşəkkülü və inkişafı öyrənilir və nəticədə, tələbələr hüquq tarixinin yaranması mərhələlərində baş verən hadisələrin və proseslərin sanki “canlı” iştirakçılarına çevrilirlər. Məhz, xronoloji-tarixi metodunun köməyi ilə, hər bir ictimai-iqtisadi formasiyada artan tələbata uyğun olaraq yeni ictimai münasibətlər sistemində, hüququn daxili inkişafında baş verən prosesləri dərketmə imkanı yaranır. Bunun məntiqi nəticəsi olaraq, ictimai-iqtisadi formasiyanın və təbii olaraq bununla yanaşı bütöv cəmiyyətin xronoloji ardıcıllıqla və ümumi qanunauyğunluqları əhatə etməklə bir mərhələdən digər, daha təkmilləşmiş mərhələyə keçidi prosesi təmin edilir.

Təşəkkül tapdığı dövrdən **yalnız hüquq,** cəmiyyətdə **ən mədəni və məlumatlı dəyəri** olaraq ictimai münasibətlərin tənzimlənməsində ümumi və fərdi davranış qaydalarını rəsmi müəyyən etmək səlahiyyətinə malik olmuşdur. **Hüquqşünaslıq** ümumilikdə, **cəmiyyətin və dövlətin siyasi təşkili fəaliyyətinin hüquqi formalarını öyrənir ki,** bu da onun elmi mahiyyətində irəli gələn əsas təyinatıdır. Dövlətin və hüququn yaranma tarixinə dair müxtəlif baxışların konstatasiya edilməsi, bir sıra reallıqları müəyyən etməyə imkan verir. Roma hüquqşünaslarının kvalifikasiyasında göstərilən **təbii hüquqlar (yus naturale)** tanınıb-

tanınmamasından asılı olmayaraq daimi, dəyişməz və sabit hüquqi məzmuna malikdir. Təbii hüquqlar, bəşəri hüquqlar olmaqla sivlizasiyanın yaranması ilə başlamışdır. İnsan hüquqlarının əsas mənbəyi, məhz təbiətin, təbii hüququn özüdür. Deməli, hüququn tarixi dövlətin tarixindən daha qədimdir.

Cəmiyyətdə mühüm sosial hadisə olan hüququn tarixinin öyrənilməsi olduqca vacibdir və ona görə də, **hüquqşünaslıq ixtisasına** yiyələnmək istəyən tələbələr **hüquqi mədəniyyətlərinin formalaşması qayğısına** daha çox qalmalı, bunun üçün hüquq münasibətlərinin formalaşması tarixini diqqətlə öyrənməli, **hüquqi fikir, hüquqi ideya və hüquqi düşüncələrini daim inkişaf** etdirməlidirlər.

Peşəkar hüquqi vərdişlər əldə etmək istəyən tələbələr ilk növbədə **hüququn əsas cəhətləri, hüququn formaları, məzmunu, əlamətləri, xüsusiyyətləri, funksiyaları, mahiyyəti, prinsipləri, vəzifələri, realizə formaları və s.** bu kimi nəzəri-tarixi fənnlərin tədris etdiyi cəhətlərə xüsus diqqət verib təhlil etmək qabiliyyətinə malik olmalıdırlar. Tədris etdiyimiz hüquq tarixi fənni nəinki **pozitiv hüquqdan** (dövlətin rəsmi qanunvericilik aktları əsasında yaradılan hüquq) ***uzaq deyil,*** əksinə onun daha mükəmməl mənimsənilməsinə xidmət edir. Hüquqşünaslıq ixtisasının bakalavr pilləsində tədris olunan “Azərbaycanın hüquq tarixi” fənni, bu ixtisas üzrə tədris olunan **sahə predmetlərin sanki, “əlifba”sını təşkil edir.** Belə ki, məhz bu fənn çərçivəsində tələbələr ilk növbədə hüquqşünaslığın tədris-metodoloji və tədqiqat-terminoloji biliklərinə dair məlumatlar əldə edir, özlərində geniş elmi dərketmə (idrak) bazasını formalaşdırır və sahə ixtisaslarının dərindən mənimsənilməsi üçün zəngin elmi aparata malik olurlar.

Nəzəri-tarixi predmetlər qrupu üzrə hüquq tarixinin öyrənilməsində metodoloji yanaşmaların əhəmiyyəti də, olduqca mühümdür. İlk növbədə bu yanaşma konyuktur xarakter ***daşımamalıdır.*** Məlumdur ki, hüquq **tarixində əsasən xronoloji,** hüquq **nəzəriyyəsi** fənnin də, **funksional metodoloji** yanaşma daha üstünlük təşkil edir. Lakin, hüquq tarixində baş verən proseslərin dərk edilməsində və elmi cəhətdən əsaslandırılmasında **ümumi və xüsusi metodoloji** yanaşmaların rolunu da qiymətləndirmək lazımdır. Hüquq tarixi elmində tarixi-nəzəri araşdırılmanın roluna və əhəmiyyətinə də xüsusi önəm verilməlidir. Çünki, **tarixi təcrübənin öyrənilməməsi və nəzəri araşdırmanın *olmaması*** normayaradıcılıq və qanunvericilik fəaliyyəti ilə məşğul olan səa-

lahiyyətli orqanların işində, mahiyyəti üzrə praktiki-əməli tətbiqi çətinləşdirən amilə çevrilə bilər.

Azərbaycan xalqı bütün tarixi ərzində çox böyük uğurlara nail olmuşdur. Xalqımızın XX əsrdə əldə etdiyi ən böyük uğuru isə onun iki dəfə müstəqil dövlət qurmasıdır. Məhz, yaşadığımız müstəqillik dövründə Azərbaycanın xalqının şərəflə keçən dövlət və hüququnun tədqiq edilməsi, onun xalqımızın dövlətçilik və hüquq tarixininin inkişafındakı yerinin müəyyən edilməsi və bunun hansı əhəmiyyət daşıdığını indiki və gələcək nəsillərə çatdırılmasi çox böyük aktuallıq kəsb edir. Qeyd etmək lazımdır ki, son illərə qədər Azərbaycanın ümumi tarixi kifayət qədər tədqiq edilsədə, dövlətçilik və hüquq tarixinin, xüsusu ilə də qədim və orta əsrlər dövrünün öyrənilməsinə əhəmiyyət verilməmişdir.

Yeri gəlmişkən qeyd etmək istərdim ki, dövlətin tarixinin ictimai və dövlət quruluşu bölməsinin öyrənilməsi, heç də əvvəllər tədris olunun dövlət və hüquq tarixi fəninin təkrarlanması anlamına gəlmir. Çünki, xronoloji ardıcılıqla təqdim edilən dövlətlərdə, ümumi tarix fənnindən fərqli olaraq, hüquq tarixinin öyrənmə predmetinə daxil olan məsələlər-əhalinin müxtəlif təbəqələrinin ictimai quruluşda yeri, silki vəziyyəti, sosial statuslarında mövcud fərqlər, həmçinin müvafiq olaraq dövlət təsisatlarının quruluşu, ali hakimiyyət institutları, onlar arasında subordinasiya qaydalarının tənzimlənmsəi, idarəçilik formaları, hüququn spesifik cəhətləri, hüquq mənbələri, mülki hüquq, mülkiyyət hüququ, öhdəlik hüququ, ailə-nikah və vərəsəlik hüququ, cinayət hüququ, cəza sistemi, məhkəmə quruluşu, məhkəmə prosesi yalnız və yalnız hüquq tarixi fəninin öyrənilmə predmetinə daxildir.

Hal-hazırda, müstəqillik bərpa edildikdən sonra ölkəmizin dövlətşünaslıq və hüquqşünaslıq elm sahələri ilə məşğul olan alimlər öz tədqiqatlarında Azərbaycanın dövlət və hüququnun araşdırılmasına, öyrənilməsinə və təbliğ olunmasına xüsusi yer ayırırlar. Çünki, indiki müstəqillik dövründə bu tədqiqatlara daha da, geniş zərurət yaranmışdır. Bu baxımdan AMEA-ın müxbür üzvü, h.e.d. prof. M.F. Məlikovanın elmi redaktor və bilavasitə müəllifliyi ilə son dövrlərdə “Ümumi hüquq nəzəriyyəsi”, “Ümumidövlət hüquq tarixi” və onun tərkib hissəsi olan “Azərbaycanın hüquq tarixi”nə dair bir çox əhəmiyyətli dərsliklər, dərs vəsaitləri, proqramlar, monoqrafiya və elmi məqalələr nəşr edilmişdir. Bu nəşrlərdən: AMEA-ın müxbür üzvü, h.e.d. prof. M.Məlikova “Hüquq nəzəriyyəsi” B., 2023-cü il; AMEA-ın müxbür üzvü, h.e.d. prof. M.Məlikova, h.e.d. dos. X.İsmayılov “Qədim dövrlərdə və erkən orta

əsrlərdə Azərbaycanın dövlət və hüququ” B., 2001-ci il; AMEA-ın müxbür üzvü, h.e.d. prof. M. Məlikova, h.f.d.dos. E.Nəbiyev “Müasir dövlət və hüquq tarixi” B., 2003-cü il; AMEA-ın müxbür üzvü, h.e.d. prof. M.Məlikova, h.f.d. dos. E.Nəbiyev “Xarici ölkələrin dövlət və hüquq tarixi” B., 2005-ci il; h.e.d. prof. X.İsmayılov “Azərbaycanın dövlət və hüquq tarixi” B., 2006-cı il; h.e.d. prof. X.İsmayılov “Azərbaycanın hüquq tarixi” B., 2015-ci il; h.e.d. prof. X.İsmayılov “Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hüquq tarixi” B., 2018-ci il; h.e.d. prof. X.İsmayılov “Azərbaycan Respublikasının konstitusion inkişafı” B., 2024-cü il; h.e.d. prof. N.Cəfərli “Səfəvilər dövləti: hakimiyyət və idarəçilik orqanları” B., 2000-ci il; h.e.d.prof. N.Cəfərli “Səfəvilər dövləti: məhkəmə orqanları və hərbi təşkilatın quruluşu” B., 2000-ci il; h.e.d. prof. N.Cəfərli, R.Rüstəmov “Müsəlman hüququnun əsasları” B., 2011-ci il; h.e.d. prof. N.Cəfərli “Müqayisəli hüquqşünaslıq” B., 2018-ci il; h.f.d. dos. E.Bayramov, t.f.d. dos. R.Əkbərov “Feodalizm dövründə idarəçilik sistemi və hüquq” B., 2000-ci il; t.f.d. dos. R.Əkbərov, h.f.d. dos. S.Səlimov “Azərbaycanın dövlət və hüquq tarixi” B., 2001-ci il; t.f.d. dos. R.Əkbərov “Xarici ölkələrin dövlət və hüquq tarixi” (mühazirə kursu) B., 2003-cü il; t.f.d. dos. R.Əkbərov, C.Nəzirov “Baltikyanı və slavyan xalqlarının dövlət və hüquq tarixi” B., 2004-cü il; t.f.d. dos. R.Əkbərov “Azərbaycanın dövlət və hüquq tarixi” B., 2009-cu il; t.f.d. dos. R.Əkbərov “Müasir hüquq sistemləri” (dərslik) B., 2014-cü il; t.f.d. dos. R.Əkbərov “Azərbaycan Xalq Cümhuriyyətinin dövlət və hüquq tarixi” (monoqrafiya) B., 2024-ci il; t.f.d. dos. R. Əkbərov “Azərbaycanın hüquq tarixi” (dərslik). B., 2021-ci il; t.f.d. dos. R.Əkbərov “Hüquq elminin tarixi və metodologiyası” (tədris-metodik vəsait) B., 2023-cü il; h.f.d. prof. Z.A. Əsgərov “Konstitusiya hüququ” (dərslik) B., 2011-ci il; h.e.d. prof. A.X. Rüstəmzadə, h.e.d. F.Y. Xəlilov “Məhkəmə hakimiyyətinin özünüidarə orqanı: Məhkəmə-Hüquq Şurası” (dərs vəsaiti) B., 2024-cü il; h.f.d. dos. S.Z.Hüseynov “Dövlət ərazi quruluşunun hüquqi tənzimlənməsi problemləri” B., 2022-ci il; h.f.d. dos. F.T. Nağıyev “Konstitusiya hüququ” B., 2014-cü il; h.e.d. A.İ. Quliyev “XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunvericilik problemləri” B., 2005-ci il; h.f.d. dos. M.N. Seyidov “XV yüzillikdə Azərbaycanın dövlət və hüququ” B., 2004-cü il; h.f.d. dos. M.N. Seyidov “Qədim dövrdə və erkən orta əsrlərdə Azərbaycanda dövlət idarəçiliyinin və qanunvericiliyin formalaşması” B., 2008-ci il; h.f.d. dos. M.N. Seyidov “IX-XV əsrlərdə Azərbaycanda dövlət

idarəçiliyinin və qanunvericiliyinin inkişafı" B., 2013-cü il; h.f.d. dos. M.Ə.Dəmirli., Ə.R.Ələsgərli "Azərbaycan hüquq tarixi (qədim zamanlardan 1920-ci ilədək)" B., 1999-cu il; h.e.d. dos. A.R. Qədiməliyev "Azərbaycan Respublikasında parlamentarizm ənənələri və müasirlik" B., 2013-cü il və s. bu kimi kitabları xüsusi ilə qeyd etmək lazımdır. Eyni zamanda, dövlət və hüquq tarixinin araşdırılmasında Azərbaycanın böyük və tanınmış tarıxçi alimlərinin dəyərli əsrləridə olduqca mühüm rola malikdir. Azərbaycanın dövlət müstəqilliyini əhatə edən 1991-2025-ci illər dövrünün dövlət və hüququnun mənimsənilməsində, yalnız yuxarda göstərilən əsərlər deyil, eyni zamanda hüququn sahə fənnlərinə dair Azərbaycanın tanınmış görkəmli hüquqşünas alimləri tərəfindən yazılmış dərsliklərin və digər əsərlərinin də xüsusi əhəmiyyəti vardır. Azərbaycan parlamentin apardığı qanunvericilik və məcəlləşdirmə işləri, müstəqillik dövrünün hüquq tarixinin, hüquq münasibətlərinin öyrənilməsi üçün mühüm mənbə rolunda çıxış edir.

# AZƏRBAYCANIN HÜQUQ TARİXİ: FƏNNİN ANLAYIŞI, PREDMETİ VƏ METODOLOGİYASI

Azərbaycanın dövlətçilik və hüquq tarixi qədim və zəngin ənənələrə malikdir. Azərbaycanın hüququnun elmi cəhətdən araşdırılmasına və bir fənn olaraq tədris olunmasına Sovet dövrü (1920-1991-ci illər) adlandırdığımız vaxtlardan – XX əsrin ikinci yarısından başlanılmışdır. Lakin, Sovet İttifaqı dövründə, Azərbaycan hüquq tarixinin sosialist mərhələsi (1920-1990-ci il) istisina olmaqla onun **qədim, orta əsrlər və yeni dövrünün öyrənilməsi "bilərəkdən" undulmuşdur.** Bu boşluğun yaranmasından istifadə edən sovet ideoloji tədqiqatçıları çoxsaylı təhriflərə yolverərək, Azərbaycan hüququnu lazımı səviyyədə təqdim etməmişdilər. Sovet dövrünün ideoloji təsirləri altında yazılan bu tədqiqatlar, əsasən konyuktur xarakter daşımışdır. Belə ki, istisimarçı dövlət idarəçiliyi, əzilən siniflər, hakim sinfin mənafeyini ifadə edən qanunvericilik sistemi, imperiya maraqlarını ifadə edən və s. adlarla, mövcud olmuş dövlətlərin ictimai-dövlət quruluşu, huquq münasibətləri təbii olaraq birtərəfli işiqlandırılmış, bu dövlətlərin bəhs olunan dövrdə və ondan sonrakı mərhələlərdə Azərbaycanın dövlətçilik və hüquq tarixində hansı mütərəqqi rola və əhəmiyyətə malik olub-olmamaları düzgün dəyərləndirilməmişdir. Sovet hüquq tarixində, müasir dövrün dövlət və hüququnun öyrənilməsini heç bir elmi əsas olmadan iki dövrə – "1917-ci il Böyük Oktyabır Sosialist İnqilabı"na qədər və ondan sonrkı dövrə bölünməsi prinsipi müəyyən edilmişdir. Halbuki, ümumqəbul olunmuş qədim, orta və müasir dövr mərhələləri çərçivəsində fənnin öyrənilməsi, elmi-metodoloji baxımdan daha uyğun olmaqla predmetin mənimsənilməsini daha da asanlaşdırır.

Müasir dövrdə Respublika anlayışlarının kvalifikasyiyası, bir sıra kriteriyalarla müəyyən edilir. İlk növbədə bu kriteriyalar ictimai və dövlət quruluşunda baş verən dəyişikliklərə əsaslanmalıdır. Məhz, ölkənin siyasi və iqtisadi sistemində, ictimai və dövlət quruluşunda baş verən fundamental dəyişikliklər, yeni respublika quruluşlarının yaranmasının əsaslarını müəyyən edir. 1918-ci ildə elan olunmuş Azərbaycan Xalq Cümhuriyyətinin **(I Respublika)** ictimai-dövlət quruluşu burjua-kapitalist münasibətləri sisteminə əsaslanmışdır. Cümhuriyyətin süqutundan sonra, 1920-ci ildə yaranmış Sovet Sosialist **(II Respublika)** quruluşunun siyasi və iqtisadi sistemində yeni kriteriyalara əsaslanan

fundamental dəyişikliklər baş vermişdir. Belə ki, sosialist dövlətinin siyasi əsasını ümumxalq deputatlar soveti, iqtisadi əsasını isə istehsal vasitələri üzərində sosialist mülkiyyəti təşkil etmişdir. Sosialist mülkiyyətinin isə iki forması, dövlət (ümumxalq) və kolxoz-kooperativ (kolxoz və kooperativ birləşmələrin) mövcud idi. 1920-ci il 28 aprel tarixindən mövcud olan Sovet Sosialist quruluşu, siyasi-iqtisadi və ictimai-dövlət quruluşunda əsaslı dəyişikilik olmadan 1991-ci il, yəni müstəqil Azərbaycan Respublikasının bərpa olunmasına qədər fəaliyyət göstərmişdir. Müstəqil Azərbaycan Respublikasının **(III Respublika)** yaranması, siyasi və iqtisadi sistemdə baş verən dəyişklilər, yeni mülkiyyət formalarının (dövlət, xüsusi, bələdiyyə) yaranması, məhz Azərbaycanda üçüncü respublikanı rəsmiləşdirdi.

Azərbaycan ərazisində ibtidai-icma quruluşundan başlamış və eramızın III əsrinə qədər olan mərhələ, dövlətəqədərki cəmiyyətin və quldarlıq dövrünün ictimai-dövlət quruluşu və hüquq münasibətləri sistemini öyrənir. Azərbaycan ərazisində III əsrdən başlayaraq, XVIII əsrin sonlarına qədər davam etmiş orta əsrlərin feodal dövlət və hüququ, Azərbaycan dövlətçiliyinin və hüququnun özünəməxsus inkişaf mərhələsini əhatə edir. Məhz, bu dövrdə Azərbaycanın qüdrətli Şirvanşahlar, Atabəylər, Səfəvilər və digər güclü dövlətləri və bu dövlətlərdə ictimai-hüquqi münasibətləri tənzimləyən təkmilləşmiş feodal idarəçilik təsisatları və hüquq institutları mövcud olmuşdur. Müasir dövrün dövlət və hüququ, əsasən burjua-kapitalist ictimai münasibətlərinin təşəkkülündən başlamaqla, ənənəvi sovet dövrünün dövrləşmə prinsipinin müəyyən etdiyi- "1917-ci il Böyük Oktyabır Sosialist İnqilabı"na qədərki – "yeni dövr" və bu inqilabdan sonrakı – "ən yeni dövr" adlandırılan dövrləşmə qaydalarından fərqli olan yeni yanaşma sistemini, yəni XIX əsrdən başlayaraq, XXI əsrin əvvəllərinə qədərki mərhələni özündə birləşdirir. Bu mərhələdə isə, XIX əsrdən başlayaraq burjua-kapitalist münasibətləri, daha sonra AXC-nin dövlətçilik və hüquq tarixi, sosialist dövrü ictimai-dövlət və hüquq münasibətləri və nəhayət müstəqil Azərbaycanın hüquq tarixi öyrənilir.

Məlumdur ki, dövlət həmişə olmamışdır. Azərbaycan ərazisində sinifli cəmiyyətin və dövlət qurumlarının yaranması e. ə. III minilliyin sonundan başlamışdır. Bu dövrdən başlayaraq artıq, ilkin siyasi birləşmələr – tayfa ittifaqları yaranmışdır. E. ə. I minilliyin əvvəllərində Manna, Atropatena, Albaniya kimi müstəqil dövlətlər tədricən formalaşmışdır. Quldarlıq dövrü dövlətlərini əvəz etmiş Azərbaycan feodal dövlətləri – Şir-